**“Türkiyədə transfer” xidmətinin göstərilməsi**

**qaydaları**

**Terminlər və əsas anlayışlar**

**İcraçı -** «Air Group» MMC-nin «Air Transfer» filialı, VÖEN:1600834421, ünvan: Bakı şəhəri, Əhməd Rəcəbli küçəsi, 3/18.

**Transfer** - Sərnişinin avtonəqliyyat vasitəsi ilə sifariş nöqtəsindən təyinat məntəqəsinə çatdırılmasıdır.

**Avtomobil vasitəsi/Avtomobil** - İcraçının istifadəsində olan və müvafiq sifarişlər üzrə istifadə etdiyi minivan, business, first class və digər siniflərə aid nəqliyyat vasitələridir. Siniflər üzrə avtomobil markaları www.airtransfer.az. veb-saytında göstərilmişdir.

**İnternet saytı** - bu linkdə göstərilən internet saytı: https://airtransfer.az/fleet.aspx?lng=ru

**Sərnişin** - Sərnişin və yükün daşınması üzrə transfer xidmətindən sifariş əsasında istifadə etmək imkanı verilən Kartın sahibi olan fiziki şəxs.

**Baqaj** - daşınmaq üçün qablaşdırılmış, sərnişini səfər boyu müşayiət edən, ölçüləri, çəkisi və xüsusiyyətindən asılı olaraq daşınmasına icazə verilən yük;

**Hava limanı** - İstanbul Beynəlxalq Hava Limanı (IST – İstanbul ş.), Sabiha Gökçen Beynəlxalq Hava Limanı (SAW - İstanbul ş.), Adnan Menderes Beynəlxalq Hava Limanı (ADB – İzmir ş.), Antalya Beynəlxalq Hava Limanı (AYT – Antalya ş.), Milas-Bodrum Beynəlxalq Hava Limanı (BJV – Bodrum ş.), Gazipaşa–Alanya Beynəlxalq Hava Limanı (GZP – Gazipaşa ş.)

**Sifarişçi** - 900 Metro Center Boulevard, Foster City, CA 94404 - 2775, ABŞ ünvanında yerləşən “Visa International Service Association”

**Kartlar** - bank tərəfindən buraxılmış Visa Platinum, Visa Signature və Visa Infinite ödəniş kartları (xidmət Azərbaycanda buraxılan kartlar üçün keçərlidir).

**Messencer** - ani mesajlaşma və video mübadiləsi üçün proqramdır, məsələn Viber, Telegram.

**Texniki tərəfdaş** - "İNFOKUS" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ, hüquqi şəxsin identifikasiya kodu: 36563986, yerləşdiyi yer: Ukrayna, 01023, Kiyev, Sportivnaya küç., ev 1-A.

**Qaydalar** – hazırki “İstanbulda transfer” xidmətlərinin göstərilməsi qaydaları.

**Qüvvədə olma müddəti** - 01.06.2024-cü il saat 00:00:01-dən 30.05.2025-ci il saat 23:59:59-a qədər olan müddət.

**Çatbot** Messenger-də olan https://mssg.me/concierge service linkində yerləşən "Visa Concierge" çatbotu deməkdir.

## 1. XİDMƏTLƏRİN GÖSTƏRİLMƏSI QAYDALARI

1.1. Transferi əldə etmək məqsədilə Sərnişin Fəaliyyət Müddəti zamanı aşağıdakı hərəkətləri həyata keçirməlidir:

1.1.1. Kartın həqiqi sahibi olmaq;

1.1.2. Çatbotda olan daxili qeydiyyat mexanikasına uyğun olaraq Çatbotda qeydiyyatdan keçmək və ya qeydiyyatda olmaq;
1.1.3. Müvafiq Çatbot menyusundakı "hava limanına transfer" düyməsinə sıxmaq;
1.1.4. Hazırki qaydalarla tanış olmaq və onları qəbul etmək;
1.1.5. Kartı əlaqələndirmək və xidmətin mövcudluğunu yoxlamaq;
1.1.6. Xidmət mövcud olduqda "hava limanını" seçmək;
1.1.7. Çatbotda ad, soyad, sərnişin və baqajın sayı, reysin nömrəsi, ünvan (hava limanı), avtomobilin çatdırılma tarixi və vaxtı, ad qeyd edilmiş lövhə (nə qeyd edilməlidirsə),aviabilet, əlavə xidmətlər.

1.2. Bu Qaydaların 1.1.1.-1.1.7. bəndlərində göstərilən hərəkətlərin uğurla yerinə yetirilməsi halında Sərnişinə aşağıdakı limitlər nəzərə alınmaqla Transfer təşkil olunur:

1.2.1. Visa Platinum kart sahibi olan Sərnişinlər üçün – hava limanından asılı olmayaraq ildə 2 dəfədən artıq olmamaq şərti ilə Transfer;
1.2.2. Visa Signature kart sahibi olan Sərnişinlər üçün - hava limanından asılı olmayaraq ildə 4 dəfədən artıq olmamaq şərti ilə Transfer;
1.2.3. Visa Infinite kart sahibi olan Sərnişinlər üçün - - hava limanından asılı olmayaraq ildə 6 dəfədən artıq olmamaq şərti ilə Transfer;

1.3. Bu Qaydalar Sərnişinlə Texniki tərəfdaş/Sifarişçi/İcraçı arasında rəsmi münasibətlərdə əsas sənəddir. Sərnişinin bu Qaydaların müddəalarını qəbul etməsi onun bu Qaydaların 1.1.1.-1.1.7. bəndlərində göstərilən hərəkətləri ardıcıl şəkildə həyata keçirməsi yolu ilə həyata keçirilir.

1.4. Sərnişinin Qaydaları qəbul etməsi könüllü olaraq həyata keçirilir və hazırki qaydaların şərtləri əsasında yazılı müqavilə bağlamaq deməkdir. Qaydaların qismən qəbul edilməsinə yol verilmir.

1.5. Transfer İstanbul şəhərinin hüdudları daxilində həyata keçirilir. Transferin sifarişi ilə maksimum 5 sərnişin, 5 ədəd Baqaj nəzərdə tutulub.

1.6. Sərnişin və ya üçüncü şəxslər tərəfindən İcraçının günahı olmadan Transfer xidmətlərindən istifadə edilmədikdə/tam istifadə edilmədikdə, Transfer sifarişi Avtomobilin istifadə müddətindən, marşrutdan, boş dayanmadan asılı olmayaraq yerinə yetirilmiş hesab ediləcək.

1.7. Sərnişin sifarişdə göstərilən müddətə qədər Transfer xidmətlərinin göstərilməsinin başlandığı yerə gəlməlidir. Razılaşdırılmış Sifariş üzrə Sərnişinin gözləmə müddəti Hava Limanına Transfer məqsədilə bütün sifarişlər üçün 30 (otuz) dəqiqə, Hava Limanından Transfer sifarişləri üçün isə faktiki enişdən sonra 60 (altmış) dəqiqədir. Göstərilən müddət bitdikdən və Sərnişinin gəlməməsindən sonra Transfer sifarişi yerinə yetirilmiş hesab olunur.

1.8. İcraçının Sərnişinlərin və Baqajın daşınması ilə bağlı tələbləri aşağıdakılardır: standart Baqaj

dedikdə 22 (iyirmi iki) düym (55x25x35 sm) ölçülü Baqaj nəzərdə tutulur. 28 (iyirmi səkkiz) düym (76x48x29 sm) ölçülü baqajlar 2 (iki) ayrı Baqaj hesab ediləcək. Baqajın həcmindən asılı olaraq, hər Avtomobil üçün Baqaj limiti müəyyən edilir və bu barədə Sərnişin sifariş verən zaman müvafiq məlumat alır. Qeyri-standart Baqajlar daşınmaya qəbul edilmir.

1.9. Sərnişin üçüncü şəxslərin və İcraçının əmlakına lazımi qayğı və ehtiyatla yanaşmalı, əmlaka ziyan vurmamalı, həmin əmlakın istifadəsi ilə bağlı üçüncü şəxslər və İcraçı tərəfindən müəyyən edilmiş qaydalara əməl etməlidir.

1.10. Əgər Sərnişinə əlavə xidmətlər (uşaq oturacağının təmin edilməsi) lazımdırsa, o bunu qeyd etməlidir. Əlavə xidmətlər üçün əlavə ödəniş tətbiq edilir.

1.11. Transfer xidməti üçün sifariş Transfer xidmətinin yerinə yetirilməsinə başlamazdan ən azı 12 (on iki saat) əvvəl verilməlidir. Sərnişin İcraçı tərəfindən göndərilən təsdiqi diqqətlə yoxlamalıvə məlumatların düzgünlüyünə əmin olmalıdır. Əgər Sərnişin tərəfindən səhv aşkar edilərsərsə, İcraçını bu barədə sifarişə başlamazdan 6 (altı) saat əvvəldən gec olmamaqla məlumatlandırılmalıdır. Əks təqdirdə İcraçı sifarişdə olan məlumatlardakı səhvlərə görə məsuliyyət daşımayacaq.

1.12. Transfer xidmətinə sifarişlərin ləğvi aşağıdakı formada müəyyənləşdirilib:

1.12.1. Əgər belə sifarişin icrasına başlamazdan əvvəl 6 (altı) saat və daha çox vaxt qalsa, Transfer xidmətinə sifariş Texniki partnyor Çat-bot vasitəsilə müraciət yolu ilə ləğv edilə bilər.
1.12.2. Əgər Transfer xidmətinin yerinə yetirilməsinə 6 (altı) saatdan az vaxt qalarsa, Transfer xidməti yerinə yetirilmiş sayılacaq.

1.13. Sərnişin avtomobildə siqaret çəkməməli, təhlükəsizlik kəməri bağlamalı, Avtomobilə diqqətlə yanaşmalı, Avtomobili zibilləməməlidir. Bu qaydalara əməl edilmədikdə, vandalizm və ya sürücüyə narahatlıq yaradan digər hərəkətlərə yol verilərsə Sərnişinin günahının məhkəmə qaydasında sübut olunması şərti ilə Sərnişin İcraçıya razılaşdırılmış ümumi məbləği və vurulmuşziyan miqdarında kompensasiya ödəyir. Eyni öhdəliklər Sərnişinlə birlikdə səyahət edən şəxslərə də aiddir.

1.14. Avtomobil vasitəsində texniki nasazlıq olduğu halda İcraçı Avtomobil vəsaitini eyni sinifli və ya daha yüksək sinifli Avtomobil vasitəsi ilə əvəz edir.

1.15. İcraçı bəyan edir ki, o, öz riski və xərcləri hesabına, xidmətin həyata keçirilməsi üçün zəruri olan bütün təsdiqləri, icazələri və lisenziyaları (o cümlədən, sərnişinlərin və/və ya yüklərin heç bir məhdudiyyət olmadan daşınması üçün zəruri olan xüsusi icazəni (lisenziya) almışdır) və bu sənədlər bu Qaydaların bütün qüvvədə olduğu müddət ərzində etibarlı olacaq.

1.16. İcraçı özünün təqsiri olmayan hallara görə (Transfer haqqında yanlış/natamam məlumatın verilməsi; Sərnişinin və ya onunla birlikdə səyahət edən şəxslərin sprtli içkilərin və ya narkotik vasitənin təsiri vəziyyətində olması; Sərnişinin və ya onu müşayiət edən şəxslərin sürücünün həyatına və sağlamlığına və/və ya Avtomobilin vəziyyətinə xələl gətirə biləcək hərəkətləri) Transfer xidmətindən imtina etmək hüququna malikdir.

1.17. İcraçı Transfer xidmətini birbaşa yerinə yetirərkən marşrutun xəttini dəyişməkdən imtina etmək hüququnu özündə saxlayır, lakin İcraçı xidmətin göstərilməsi və bu Qaydaların şərtlərinin müvafiq yerinə yetirilməsi üçün bütün imkanlardan istifadə edəcək.

1.18. İcraçı birtərəfli qaydada Sərnişinin maraqlarına ziyan vurmadan göstərilən/yerinə yetirilməsli olan xidmətə dəyişiklik edə bilər (hərəkət marşrutunun dəyişdirilməsi, Avtomobil vasitəsinin eyni dərəcəli və ya daha yüksək dərəcəli Avtomobil vasitəsi ilə əvəzlənməsi, sürücünün dəyişdirilməsi).

1.19. İcraçı Sərnişinə rus və ya ingilis dilində danışa bilən bir sürücü vermək üçün səy göstərir, lakin buna zəmanət vermir. Sürücünün hansısa dili bilməməsi Sərnişin tərəfindən İcraçıya etiraz etmək üçün əsas təşkil etmir.

1.20. Sürücü Sərnişinin şəxsiyyətini təsdiqləyən sənədlərin təqdim edilməsini tələb edə bilər.

## 2. TƏRƏFLƏRİN MƏSULİYYƏTİ

2.1. Sərnişin təqdim olunan məlumatların doğruluğuna və Kartdan istifadə hüququna görə mövcud qanunvericilikdə nəzərdə tutulmuş məsuliyyət daşıyır.

2.2. Vergilərin, rüsumların və icbari ödənişlərin ödənilməsi müvafiq vəzifənin mövcud qanunvericiliyin müddəaları ilə yükləndiyi şəxs tərəfindən həyata keçirilir.

2.3. Sifarişçi/İcraçı/Texniki partnyor Sərnişin və ya üçüncü şəxslər tərəfindən onlardan asılı olmayan səbəblərə görə, o cümlədən reysin ləğvi, vaxtının dəyişdirilməsi və ya gecikməsi ilə əlaqədar olaraq, o cümlədən lakin bununla məhdudlaşmayaraq Hava Limanının istismarı, Sərnişin və ya onu müşayiət edən şəxslər tərəfindən mövcud qanunvericiliyin müddəalarının pozulması və s. ucbatından Transferdən istifadə edə bilməməsinə görə məsuliyyət daşımır.

2.4. Sərnişinin və ya üçüncü şəxsin təqsiri ucbatından Tansfer xidmətinin yerinə yetirilməsi pozulduqda (sifariş edilmiş Transfer xidməti haqqında yanlış məlumatların verilməsi, göstərilən yerə çatmaması və/və ya vaxtında çatmaması, ləğvetmə müddəti başa çatır), Transfer başa çatmış hesab olunur.

2.5. İcraçı bu Qaydaların qüvvədə olduğu müddətdə İcraçının təqsiri ucbatından baş vermiş yol-nəqliyyat hadisəsinə, Avtomobilə, Sərnişinə, onu müşayiət edən şəxslərə və Baqaja dəymiş zərərə, habelə üçüncü şəxslərin iddialarına görə tam məsuliyyət daşıyır.

2.6. Yol-nəqliyyat hadisəsi baş verməsi halında Sərnişinin və onu müşayiət edən şəxslərin həyatına və sağlamlığına zərər vurulmasına görə məsuliyyət Azərbaycan Respublikası ərazisindənəqliyyat vasitəsi sahibinin məsuliyyətinin sığortalanması haqqında qanunvericiliklə tənzimlənir.

## 3. FƏRDİ MƏLUMATLARIN İŞLƏNMƏSİ

3.1. Sərnişin özünə aid olan şəxsi məlumatlarının emalı üçün ayrıca əsas olan bu Qaydaların şərtləri əsasında bağlanmış müqavilənin icrası üçün Texniki partnyora aşağıdakı şəxsi məlumatları təqdim edir: ingilis dilində familiyası, adı, atasının adı, telefon nömrəsi. Bu məlumatların işlənməsi qaydaları Çatbotda olan məlumatların işlənməsi qaydalarının bir hissəsidir.

3.2. 3.1-ci bənddə göstərilən fərdi məlumatlar Sərnişinin Transfer xidmətini almaq hüququnun həyata keçirilməsi məqsədi ilə Fəaliyyət müddəti ərzində işlənir. Bu cür fərdi məlumatlar hazırki qaydaların şərtlərini yerinə yetirmək məqsədilə toplanacaq, işlənəcək, (Texniki partnyorun xarici serverlərinə və İcraçıya) ötürüləcək. Texniki tərəfdaş fərdi məlumatların sahibi və idarəedicisidir. İcraçının şəxsi məlumatlarla işləmək üçün öz siyasəti var, lakin istənilən halda həmin məlumatlar hazırki qaydalara zidd olaraq işlənə bilməz. İcraçının şəxsi məlumatların işləməsi siyasəti ilə

aşağıdakı internet linkdə tanış ola bilərsiniz: https://airtransfer.az/files/privacy_policy/az.pdf. Şəxsi məlumatlar ötürüldükdən sonra müəyyən edilmiş siyasəti əsasında emal edilir. Əgər sərnişin bu qaydalarla razı olmadıqda, o zaman bu Qaydaların 1.1.1.-1.1.7. bəndlərində göstərilən hərəkətləri etməməlidir.

3.3. Qaydaların 1.1. bəndində göstərilən hərəkətləri həyata keçirərməklə Sərnişin şəxsi məlumatlarının işlənməsinin göstərilən qaydasına razılıq verir, habelə mövcud qanunvericiliyin ona verdiyi bütün hüquqlarla tanış olduğunu təsdiqləyir.

## 4. DİGƏR MÜDDƏALAR

4.1. Texniki tərəfdaş bu Qaydalar çərçivəsində öhdəliklərin yerinə yetirilməsi üçün üçüncü şəxsləri cəlb etmək hüququna malikdir.

4.2. Bu Qaydaların, Qaydalarla həll olunmayan hər hansı mübahisəli məsələlərin və/və ya məsələlərin birmənalı şəkildə şərh olunmamasını nəzərdə tutan vəziyyət yaranarsa, Təşkilatçı/Sifarişçi bu cür məsələlərin həllini özündə saxlayır. Texniki partnyorun/Sifarişçinin həmin qərarı son qərardır və ondan şikayət edilməməlidir.

4.3. Qüvvədə olma müddəti Sifarişçinin və Texniki partnyorun qarşılıqlı razılığı ilə dəyişdirilə və ya vaxtından əvvəl xitam verilə bilər. Qüvvədə Olma Müddətinin dəyişdirilməsi və ya ona vaxtından əvvəl xitam verilməsi Çatbotda açıqlandığı təqdirdə mümkündür.

4.4. Bu Qaydalar və onlara edilən dəyişikliklər Çatbotda tanış olmaq məqsədilə yerləşdirilib.

4.5. Texniki partnyor fəaliyyət müddəti ərzində mövcud qaydalara dəyişiklik etmək hüququnu özündə saxlayır.

4.6. Hazırki Qaydalar 01.06.2024-cü il tarixindən qüvvəyə minir.

**Tərəflərin imzaları:**

| Tərəfdaş 1 | Tərəfdaş 2 |
|---|---|
| (imza) | (imza) |
| Xələfov A.A. | Kotok D.A. |
| (ad/soyad) | (ad/soyad) |